2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 dekabr 2019-cu il tarixli 48 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 2 yanvar 2019-cu il

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 63 saylı Sabirabad birinci seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzrə qeydə alınmış namizəd Zərbəliyeva Pərvanə Bəybala qızı 30 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək həmin seçki dairəsinin 20 saylı məntəqəsində səsvermə günü qanun pozuntularının araşdırılması barədə dairə seçki komissiyasının qəbul etdiyi 26/72 saylı 28 dekabr 2019-cu il tarixli qərarını mübahisələndirmiş, şikayətə yenidən baxılması və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Namizəd öz müraciətində göstərmişdir ki, səsvermə günü o, yüksək səs topladığı halda ondan az səs toplayan namizədlər bələdiyyəyə üzv seçilmişlər.

Araşdırma prosesində müraciət etmiş qeydə alınmış namizəd Zərbəliyeva Pərvanə Bəybala qızı ilə əlaqə saxlanılmış, ona əlavə sənədlər və materiallar təqdim etmək və digər hüquqlarının olması izah edilmişdir.

Həmçinin, dairə seçki komissiyası ilə əlaqə yaradılmış və qeydə alınmış namizədin şikayətinə baxılması barədə komissiyanın qəbul edilmiş qərarının surətini və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

Araşdırılma zamanı müəyyən edilmişdir ki, səsvermə günü 63 saylı Sabirabad birinci seçki dairəsinin 20 saylı seçki məntəqəsində baş verməsi iddia edilən qanun pozuntusu təsdiqini tapmamış, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Belə ki, səslərin sayılmasında baş verməsi iddia edilən hər hansı bir qanun pozuntusu öz təsdiqini tapmamış və bu hal səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər M.Ə.Həsənovun, V.İ.Nağıyevin, Ə.H.Ramazanovun, S.N.Nazimovun, H.M.Məmmədovun, İ.M.Mehdiyevin, həmçinin bələdiyyə üzvlüyünə seçilməmiş digər

namizədlər V.İ.Məhərrəmovun, A.T.Urufovanın, G.Ə.Abdullayevanın, M.Ə.Əliyevanın, P.Ə.Abdullayevin, İ.İsmiyevin, G.Əliyevin, E.Kazımovun, məntəqə seçki komissiyasının sədri A.A.Qurbanovun, komissiyanın katibləri N.F.Məmmədovun, H.O.Məhərrəmlinin, komissiyanın üzvləri V.M.Qasımovun, R.M.Novruzovun, T.Hüseynovun izahatları ilə təsdiq olunur.

Araşdırma nəticəsində şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır və 63 saylı Sabirabad birinci seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 26/72 saylı qərarı seçki qanunvericiliyinin tələblərinə uyğun qəbul edilmişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş məlumatlara əsasən şikayət əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 63 saylı Sabirabad birinci seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzrə qeydə alınmış namizəd Zərbəliyeva Pərvanə Bəybala qızının 30 dekabr 2019-cu il tarixli 48 saylı müraciəti əsassız olduğundan təmin olunmasın, dairə seçki komissiyasının 28 dekabr 2019-cu il tarixli 26/72 saylı qərarı qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov